ISSN: 2706-6185
e-ISSN: 2709-4197

DOI: https://doi.org/10.36719/2706-6185/46/72-76

**Günəş Məmmədova**
Azərbaycan Milli Elmlər Akademiyası
dissertant
https://orcid.org/0009-0002-1296-4969
gunes.ehmedova.89@mail.ru

# Günter Qrassın "Tənəkə təbil" romanında XX əsr alman cəmiyyətinin təsviri

## Xülasə

Günter Qrassın *Tənəkə təbil* romanı XX əsr Avropa ədəbiyyatının ən mühüm əsərlərindən biridir. Romanın baş qəhrəmanı Oskar Matzerathdır. Oskar üç yaşında böyüməkdən imtina edir və dünyanı uşaq gözü ilə dərk etməyə davam edir. Müharibə və faşizmin cəmiyyətin üzərində buraxdığı izlər Oskarın simasında təsvir olunur. Oskarın tənəkə təbili və onun qeyri-adi səsi simvolik elementlər kimi romanda mühüm rol oynayır. Günter Qrass bu romanında magik realizm və modernist texnikalardan istifadə edərək Almaniyanın faşizm keçmişi ilə üzləşməsini tənqid edir. Roman faşizmin yüksəlişi, kollektiv məsuliyyət və günah anlayışlarını dərindən araşdırır. Nasist ideologiyasının cəmiyyətə təsiri, fərdlərin bu ideologiyaya uyğunlaşması və müharibənin doğurduğu mənəvi problemlər əsərin əsas mövzusudur. Oskarın böyüməməsi Alman cəmiyyətinin keçmiş günahlarını unutmaq istəməsinin simvoludur. Roman həm tarixi, həm də fəlsəfi suallar qaldıraraq müharibədən sonrakı alman cəmiyyətində məsuliyyət və günah anlayışlarını araşdırır.
***Açar sözlər:*** *faşizm, müharibə, travma, cəmiyyət, simvolizm, sehrli realizm*

**Gunesh Mammadova**
Azerbaijan National Academy of Sciences
PhD student
https://orcid.org/0009-0002-1296-4969
gunes.ehmedova.89@mail.ru

# Depiction of 20th-Century German Society in Gunter Grass's Novel "The Tin Drum"

## Abstract

Günter Qrass` s "The Tin Drum" is one of the most significant works of 20$^{th}$ century European literature. The novel's protagonist Oskar Matzerath, refuses to grow up at the age of three, continuing to perceive the world through a child s perspective. The traumas of war and and fascizm are symbolized through Oskar `s character. His tin drum and unique voice serve as the key symbolic elements in the novel. Grass employs magical realism and modernist techniques to critique Germany s confrontation with its fascist past . The novel explores themes such as the rise of fascism , collective responsibility and guilt. It examines the impact of Nazi ideology on society , the adaptation of individuals to this ideology and the moral dilemmas caused by war. Oskar s refusal to grow represents the german society `s reluctance to acknowledge its past sins. The novel raises historical and philosophical questions, delving into the concepts of responsibility and guilt in post-war german society.
***Keywords:*** *fascism, war, trauma, society, symbolism, magical realism*

## Giriş

Alman yazıçısı Günter Qrassın 1959-cu ildə nəşr olunan "Tənəkə təbil" əsəri XX əsr Avropa ədəbiyyatının ən mühüm romanlarından biri hesab olunur. Bu əsər İkinci Dünya müharibəsi


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

dövrünün faciələrini, alman cəmiyyətinin müharibə və faşizm qarşısındakı mövqeyini ironik və simvolik üslubda təsvir edir. Günter Qrassın bu romanı ədəbiyyatda modernist texnikalarla işlənmiş, Almaniyanın keçmişi ilə üzləşməsinə çağırış edən bir əsərdir. Bu məqalədə əsərdəki əsas mövzular və simvollar araşdırılacaqdır.

**Tədqiqat**

Müharibədən əvvəlki dövrü, müharibə dövrünü və müharibədən sonrakı dövrləri əhatə edən, 46 fəsildən ibarət olan roman şərti olaraq üç "kitab"a bölünür. Qrassın mürəkkəb yazı üslubu əsərdə həm poetik, həm də satirik üslubların birləşməsinə şərait yaratmışdır.

Birinci “kitab”da Oskarın üçüncü ad günündə ona hər şeydən çox sevdiyi tənəkə təbil hədiyyə edilir. Sonra anası onun tənəkə təbilini əlindən almağa çalışır. Bir gün Oskar qışqıraraq şüşəni sındırmaq qabiliyyətini kəşf edir. Bu hədiyyə Oskarın məktəbə getməsinə mane olur. O, yazmağı və oxumağı özü öyrənir. O, Milli Sosializm təhlükəsinin özünü göstərdiyi bir zamanda Bebra adlı qısaboylu bir musiqiçi ilə tanış olur. Bu müddətdə o, həmçinin anasının sevgilisi ilə münasibətinin də şahidi olur. Bir müddət sonra isə anası Aqnes balıq zəhərlənməsindən dünyasını dəyişir (Grass, 1997).

1938-ci ildə yəhudi Siqismund Markusa məxsus xırdavat malları mağazası Milli Sosialistlər tərəfindən dağıdılır. Oskar həmişə tənəkə təbillərini oradan alırdı. Markus dözməyərək özünü zəhərləyib öldürür və balaca Oskar bütün bu hadisələrin şahidi olur.

İkinci kitab II Dünya müharibəsinin əvvəlində baş verən hadisələrin təsviri ilə başlayır. Oskarın anasının sevgilisi olan Yan Bronski digər işçilərlə birlikdə müdafiəyə keçir, ancaq həyatını itirir (Grass, 1993).

Oskarın atası Alfred isə Oskarın dostu Herbertin bacısı Mariya ilə tanış olub evlənir və onların bir oğlu – Kurt dünyaya gəlir. Oskar Kurta söz verir ki, o üç yaşına çatanda ona tənəkə təbil hədiyyə edəcək. Oskar Bebra ilə Parisə səyahətindən qayıtdıqdan sonra sözünü tutub Kurta tənəkə təbil hədiyyə edir, ancaq Kurt onu əlinə aldığı andaca yox edir.

Qırmızı Ordu Dansiqə çatanda Matseratın evinə basqın edir və Alfred Matserat öldürülür. Oskar öz tənəkə təbilini atasının qəbrində basdırır. O, qışqıraraq şüşə sındırmaq qabiliyyətini itirir və bir həkimin məsləhəti ilə Mariya və Kurtla birlikdə Reynlanda köçür. Burada Oskar çox ağır xəstəlik keçirir və bir xəstəxanaya yerləşdirilir. Bu zaman o, Mariyanı görə bilmir. Çünki klinikaya yaxın ərazidə yaşayış yeri yox idi. Mariya klinikada təmizlikçi kimi işə başlayır. Ancaq klinikaya getmək üçün hər gün bir saat yol getməli olur (Günter, 2015).

1945-ci ilin avqustundan 1946-cı ilin mayına qədər Oskar klinikada qalır. Klinikadan çıxdıqdan sonra isə o, həyatını tamamilə dəyişdirmək – “böyümək” qərarına gəlir.

Üçüncü kitabda isə müharibədən sonra Oskar ögey anası və onun oğlu Kurtla birlikdə indiki Polşa şəhəri olan Dansiqi tərk edib Düsseldorfa köçür. Orada o, səhnədə geyimsiz naturada çıxış edir və qəbir daşları düzəltməklə məşğul olur. Mariya və Kurtla arasında yaranan gərginliyə görə Oskar ayrı yaşamaq qərarına gəlir. Laydlerin mülkündə bir otaq kirayə edir. Buraya daxil olar-olmaz qonşuluğunda yaşayan tibb bacısı Dorotheyaya aşiq olur. Ancaq ona heç nə deyə bilmir. Oskar günlərin bir günü musiqiçi Klepplə tanış olur. Atasının ölümündən sonra o, and içmişdi ki, bir də tənəkə təbil çalmayacaq. Ancaq Klepplə tanışlığı onun həyatını dəyişdirir və o, yenidən tənəkə təbilini çalmağa başlayır. Onlar birlikdə “Onion Cellar” klubuna dəvət edilirlər. Oskarın performansını izlədikdən sonra bir səsyazma şirkəti ona bir müqavilə təklif edir. Oskar tezliklə şöhrət və sərvətə qovuşur. Ancaq bir gün o yol gedərkən öldürülmüş tibb bacısı Dorotheyanın kəsilib atılmış barmağını tapır və bu cinayəti onun üstündə qalanda özünü müdafiə etmir. Beləliklə, onu öz xatirələrini yazdığı ruhi dispanserə yerləşdirirlər (Günter, 2016).

Əsərdə faşizmin yüksəlişi və insan psixologiyası üzərindəki təsiri incə şəkildə təsvir edilir. Oskar yetkinlərin necə asanlıqla nasist ideologiyasına uyğunlaşdığını müşahidə edir və onların düşdüyü riyakarlığı ifşa edir. Müharibə, nasizm və faşizmə qarşı sərt tənqid romanın əsas mövzularından biridir (Sebald, 2003).

Ömrünü həm romanlarında, həm də siyasi mövqeyində nasizmin və müharibənin qaranlıq tərəflərini göstərməyə həsr etmiş Qrassın ədəbi ictimaiyyətdə böyük səs-küyə səbəb olmuş “Tənəkə təbil” romanı “günah və müharibə” məsələsinə fərqli mövqelərdən işıq salmışdır.

Biz müharibələrin səbəb və nəticələrini müzakirə edə, sülh üçün vacib olan şərtləri təhlil edə bilərik. Amma həm tarixi, həm də konseptual araşdırma aparanda, əgər söhbət müharibədən gedirsə, gözardı edilə bilməyən məsələ vətəndaşların təcrübələri və məsuliyyətidir. Vətəndaşlar bəzi hallarda müharibənin səbəbkarı, bəzi hallarda qurbanı, bəzi hallarda isə şahidi ola bilirlər. Müharibənin şahidi olmuş totalitar rejim altında yaşayan xalq müharibə zamanı törətdiyi cinayətlərə görə məsuliyyət daşıya bilərmi? Yəni cinayət qarşısında əlibağlı seyr edənlərin məsuliyyəti nədən ibarətdir? Bu dolayı cinayətin əvəzini üzrxahlıqla və ya keçmişlə barışmaqla təmin etmək olarmı? (Toros Günəş Esgül, 2022).

"Tənəkə təbil" romanında müzakirə edilən ən mühüm mövzulardan biri də hələ də müharibə şəraitində "normal həyat sürməyə çalışan" alman xalqının susqunluğu və bu susqunluq altında yatan ağır günahkarlıq hissinin onların yaşam tərzinə sirayət etməsidir. Roman 1899–1954-cü illəri təsvir edir. Başqa sözlə, İkinci Dünya Müharibəsindən əvvəlki dövrü və müharibədən sonrakı böhran illərinə qədər geniş bir tarixi dövrü əhatə edir. Romanın baş qəhrəmanı Oskar Matzerat ruhi-əsəb dispanserində yatarkən öz həyat hekayəsini və ailəsinin başına gələnləri fərqli bir üslubla nəql edir. Oskar dünyaya gəlməmişdən əvvəl də bütün hadisələrin içində olub. O, şahidi olmadığı hadisələrin belə şahidi kimi danışır. Roman Oskarın nənə və babasının tanış olması hekayəsi ilə başlayır. Bu ailənin qurulması həm də "cinayətlərin başlanğıcıdır" (Günter, 2022). Oskarın babası Joseph Kojaiczek həm yanğın törədən, həm də yanğınsöndürəndir. Evi yandırdıqdan sonra qaçarkən Oskarın nənəsi ilə tanış olur və onların Aqnes adında bir qızı dünyaya gəlir. Aqnes öz əmisi oğlu, polşalı Yan'a aşiq olsa da, Oskarın rəsmi atası, əslən alman olan və daha sonra nasistlərə qoşulan Alfred Matzerat ilə evlənir. Odur ki, Oskarın atasının Alfred yoxsa Yan, protestant və ya katolik olması bəlli deyil. Oskar 1924-cü ildə doğulsa da, ölümü şübhə doğuran, 1913-cü ildə ölkədən qaçan babasının ölümündə özünü günahkar bilir. Bu "günah" mövzusu romanda davamlı olaraq təkrarlanır. Hər kəs sanki başqalarının əməllərinin əvəzini ödəyir, amma öz hərəkətlərinə görə məsuliyyət daşımır (Günter, 2010).

Oskar üç yaşı olanda "böyüməmək" qərarına gəlir və buna görə də özünü hündür yerdən atır. Məhz buna görə də roman boyu özündən birinci və üçüncü şəxs kimi danışır. Bu həm də Oskarın məsuliyyəti öz üzərinə götürməsi ilə bağlı ikitərəfliyin nəticəsidir.

Roman Oskar və ailəsinin həyatından bəhs etsə də, iki dünya müharibəsinin əvvəlki və sonrakı dövrlərindən, necə başlayıb və necə bitdiyindən, insanların gündəlik həyat tərzini necə dəyişdirdiyindən, ən əsası isə insanlar arasındakı kiçik cinayətlərdən bəhs edir.

Oskar 3 yaşlı uşaq bədəninə və zəkasına sahib biri kimi görünür. Buna görə də o, törətdiyini düşündüyü cinayətlərə görə məsuliyyət daşıya bilmir. O, yalnız özünü pis hiss etdikdə pəncərəni belə sındıra bilən qışqırıqla reaksiya verə bilir. Sonralar o, bu "istedadından" müxtəlif cinayətlərində, məsələn, oğurluq edəndə istifadə edir. Əvvəlcə faşistlərə qoşulmaq istəyir, daha sonra müxalifətə kömək edir, insanları əyləndirməyə çalışan sirklərdə işləyir. Bütün bu macəraların içərisində ögey atasının arvadından qeyri-qanuni övladı olur (Günter, 2012).

Oskarın şəhərdən-şəhərə, kənddən-kəndə macərasının son mərhələsi və günahkarlıq probleminin mahiyyəti 1950-ci illərdə dəyişir. Bu zaman müharibə başa çatdıqdan sonra Oskar bir qrupla işləməyə başlayır və daha sonra Dorotea adlı bir tibb bacısının ölümü ilə əlaqədar təqsirləndirilir. İlk dəfədir ki, Oskar cinayət məsuliyyəti daşıyır. Oskar özünü bu qətldə günahkar saymasa da, ilk dəfə Oskarın cinayətlərindən birinin üstü açılmış kimi görünür. O, məhkəməyə gətirilərək qətldə ittiham olunur, əvvəlcə həbs edilir, daha sonra cinayət məsuliyyətini aradan qaldıran ruhi xəstəliklər diaqnozu ilə klinikaya yerləşdirilir, sonra isə bəraət alır. Klinikadan çıxmazdan əvvəl qorxu içində bundan sonra həyatını necə davam edəcəyini düşünür və roman bitir (Hermes, 1997).

II Dünya müharibəsinin yaralarının hələ sağalmadığı 1959-cu ildə işıq üzü görən "Tənəkə təbil" əsərini müharibə romanı edən əsas xüsusiyyəti əsərin daxilində daşıdığı dinamikasıdır. Başqa sözlə desək, roman müharibədən bəhs etsə də, daima öz daxilindəki ziddiyyətli ünsürlərlə qarşılaşır. Romandakı personajlar daim müxtəlif mövqelərdən dəyərləndirilir. Romanın qəhrəmanı Oskar nə alman, nə polyak, nə katolik, nə protestant, nə uşaq, nə böyük, nə dəli, nə də ağıllı obrazdır.

Oskarın daxilində daşıdığı qeyri-müəyyənlik və münaqişə onun özünü heç bir yerə aid hiss etməməsinə səbəb olur. Özünə sığınacaq tapmağa çalışan bu qəribəlik XX əsri təmsil edir. Müharibədə qalib yoxdur. Çünki müharibə başladığı andan sona qədər bütün həyatı, mədəniyyəti məhv edir. Qrassın fikrincə, müharibə sanki zamansızdır. Rəsmi olaraq nə vaxt başladığı və bitdiyi söylənməsindən asılı olmayaraq, düşmənçilik müharibədən əvvəl və sonra həyatın hər sahəsinə nüfuz etmişdir.

Qrass romanında müharibəni təsvir etməklə yanaşı, müharibənin altında yatan səbəbləri də açıqlayır: yoxsulluq, özgələşmə, şəxsi maraqlar, ayrı-seçkilik, müasir cəmiyyətin böhranını yaradan iqtisadi münasibətlərin özü və bunların hamısının gündəlik həyatda və insanın etik təxəyyülündə yaratdığı zərərlər... (Toros Güneş Esgül, 2022).

Qrass Oskarın dünyaya gəlməsini və bir qəza nəticəsində inkişafdan qalmasını müharibədən əvvəlki dövrə aid edir. Oskar öz xəstəliyini bildiyi halda heç vaxt bundan şikayət etmir. Çünki ziddiyyətləri öz daxilində yaşayır. Qrassın fikrincə, böyümək yalan danışmaq, iddia etmək, öz mənafeyinə görə başqalarına zərər verə bilmə deməkdir. Uşaqlar isə təbiətcə itaətsiz olur. Oskarın uşaqlığı onun nəinki itaətsiz olmasına, həm də məsuliyyətdən azad olmasına, bir sözlə törətdiyi cinayətlərə görə cəza almamasına səbəb olur (Totes Holz: Ein Nachruf, 1990).

Müharibə bitdikdən sonra Oskar nəhayət böyüyüb tənəkə təbilini basdırmağa qərar verəcək. Amma hər şey bitdikdən sonra böyümək, keçmiş cinayətlərə görə məsuliyyətin olub-olmaması sualını gündəmə gətirir. Çünki Oskar həm də alman xalqını təmsil edir. Müharibədən əvvəl və müharibə zamanı məsuliyyəti öz üzərinə götürə bilməyən bir xalqın baş verən hadisələrdən sonra geriyə baxıb müəyyən qərar verməsi necə qarşılanar?

Qrassın romanda bəhs etdiyi bu problem əslində müharibədən sonrakı dövrdə təkcə ədəbi yazıçıların deyil, filosofların da ən çox müraciət etdiyi mövzulardan biridir. Bu baxımdan Yaspersin cavabdehlik məsələsi və mərhəmət haqqında fikirləri maraqlıdır: cavabdehlik məsələsi ilə məşğul olarkən, Yaspers keçmişlə barışmağı hədəfləyir. Yaspers hər şeydən əvvəl deyir ki, hər kəs cinayət törətməyə qadirdir. Yalnız törətdiyi cinayətin məsuliyyətini öz üzərinə götürən və cəzanı qəbul edən insan mənəviyyat sahibi ola bilir (Yaspers, 1946).

Yaspersə görə siyasi cinayət qanun çərçivəsində qiymətləndirilərkən, əxlaqi cinayət insanın öz mənəviyyatı qarşısında daşıdığı məsuliyyətdir. Yaspers alman xalqının günahkar olub-olmadığını araşdırmağa çalışır. Nəticədə alman xalqının məsuliyyət daşıdığını, lakin Allah qarşısında digər xalqlar kimi məsuliyyət daşıdığını deyir. Çünki onun fikrincə, hər bir xalq istənilən vaxt alman xalqı kimi diktatura altında yaşaya, öz qərarı olmayan cinayətlərin şahidinə çevrilə bilir (Yaspers, 1946, s. 156).

Davamlı olaraq başqalarını günahlandırmaq və cəzalandırmaq gücü heç kimin məsuliyyəti öz üzərinə götürməməsinə və məsuliyyətdən yayınaraq cinayətə göz yummasına səbəb olur. Ona görə də müharibə başa çatsa da, insanları susmağa vadar edən səbəblərin heç biri dəyişilmir.

Riçard H. Lausan qeyd edirdi ki, Almaniyanın Günter Qrassa ehtiyacı olduğu qədər heç bir ölkənin belə bir yazıçıya ehtiyacı olmamışdır. O, həmçinin öz təəccübünü də ifadə edirdi ki, Qrass bu hadisəni özünün doğulduğu Dansinqlə necə əlaqələndirmişdir. Bu qabiliyyəti onun bir uşağın hekayəsi vasitəsilə cəmiyyətin alt qatlarında yatan gerçəkliyi üzə çıxarmasına şərait yaratmışdır. Bu əsər alman cəmiyyətinin mükəmməl rəsmi hesab edilə bilər və bu cəmiyyətdə bəzən ürəkaçan, bəzən də qorxunc hadisələr baş verə bilər ki, bu da normal qarşılanmalıdır (Lausan, 1985).

"Tənəkə təbil" romanı simvolizmlə zəngindir. Oskarın böyüməkdən imtina etməsi nasist ideologiyasına qarşı passiv müqaviməti simvolizə edir. Onun tənəkə təbili isə yaddaş və tarixlə bağlılığı təcəssüm etdirir. Oskarın şüşələri qışqıraraq qırmaq qabiliyyəti nasizmin və müharibənin yaratdığı travmalara qarşı səssiz bir etirazdır.

Roman nasizmin yüksəlişi və insan psixologiyası üzərindəki təsirini incə bir şəkildə təsvir edir. Oskar yetkinlərin nasist ideologiyasına necə asanlıqla uyğunlaşdığını müşahidə edir və onların riyakarlığını ifşa edir. Müharibə, nasizm və faşizmə qarşı sərt tənqid romanın əsas mövzularından biridir (Sebald, 2003).

## Nəticə

"Tənəkə təbil" romanı yalnız bir insanın hekayəsi deyil, bütöv bir cəmiyyətin keçmişi ilə necə üzləşməli olduğunu araşdıran dərin fəlsəfi və tarixi bir əsərdir. Qrass Almaniyanın müharibədən sonrakı cəmiyyətində günah, məsuliyyət və kollektiv vicdan kimi mövzuları gündəmə gətirir. Oskarın böyümək istəməməsi yalnız fərdi bir qərar deyil, həm də müharibənin yaratdığı kollektiv travmanın bir təzahürüdür.

Əsər müharibə və faşizm kimi tarixi hadisələrin yalnız tarixçilər və siyasətçilər tərəfindən deyil, həm də yazıçılar və filosoflar tərəfindən araşdırılmalı olduğunu vurğulayır. Günter Qrassın bu əsəri müasir dövrümüz üçün də aktualdır, çünki müharibə və insan məsuliyyəti ilə bağlı suallar hələ də cavabsız olaraq qalır.

## Ədəbiyyat

1. Grass, G. (1993). *The tin drum* (R. Manheim, Trans.). Alfred Knopf.
2. Grass, G. (1997). *Teneke trampet* (K. Şipel, Trans.). Cem Nəşriyyatı.
3. Grass, G. (2010). *Grimms Wörter*. Göttingen: Steidl.
4. Grass, G. (2012). *Eintagsfliegen*. Göttingen: Steidl.
5. Grass, G. (2015). *Vonne Endlichkait*. Göttingen: Steidl.
6. Grass, G. (2016). *Gespräche 1958–2015*. Göttingen: Steidl.
7. Grass, G. (2022). *Figurenstehen*. Göttingen: Steidl.
8. Hermes, D. (Ed.). (1997). *Die Deutschen und ihre Dichter*. Göttingen: Wallstein.
9. Lawson, R. H. (1985). *Günter Grass* (Literature & Life). Ungar Publishing.
10. Neuhaus, V. (Ed.). (1987). [Title not specified]. Darmstadt/Neuwied: Luchterhand.
11. Sebald, W. G. (2003). *Luftkrieg und Literatur*. Carl Hanser Verlag.
12. Toros Günəş, E. (2022, February 27). Büyümeyi reddetmek, Teneke trampet, savaş və suçluluk. *Literaturportal*.
13. Totes Holz: Ein Nachruf. (1990). Göttingen: Steidl.
14. Yaspers, K. (1946). *Die Schuldfrage: Ein Beitrag zur Deutschen Frage*. Artemis Verlag.

Daxil oldu: 19.01.2025
Qəbul edildi: 11.04.2025